# "Mavi ay" restoranında qətl



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**



**III yazı**

**(Povest)**

***... Məcid fikirli-fikirli dedi:***

***- Məncə, sizin polisdəki adamınızın – Murtuzun bizə köməyi dəyə bilər. Qaraxan, zəng elə ona. Qoy şöbədən öyrənsin ki, zərurət olduqda polkovnik Maqsudovu harada axtarmaq lazımdır. Növbətçi polis bunu mütləq bilməlidir.***

***Qaraxan telefon nömrəsini yığdı, astadan nəsə dedi və dəstəyi asdı.***

***- Öyrənib xəbər verəcək.***

***Murtuz yarım saatdan sonra zəng vurub bildirdi ki, növbətçinin dediyinə görə polkovnik axşam saat 8-dən 10-dək Zeytunlu məhəlləsində 'Mavi ay" restoranında olacaq.***

***Cəbi otaqdakılara dedi:***

***- Mən bu restoranı yaxşı tanıyıram, bizim üçün əlverişli yerdir. Stollar arasında arakəsmələr var ki, müştərilər bir-birinə mane olmasınlar. Adətən bu restorana ailəlikcə gəlirlər. Sakit yerdir. – Sonra stolun üstünə səpələnmiş siqaretlərin köməyilə sxem çəkməyə başladı: - Rasim, vaxt azdır, elə indi ora adam göndər ki, tapançanı tualetdə gizlətsin. Oranın tualetinə də yaxşı bələdəm, baçokla divar arasında kifayət qədər yer var, qoy tapançanı baçoka arxa tərəfdən plastırla bərkinsinlər. Murad, maşında sənin üst-başını axtarıb silah tapmadıqda sakitləşəcəklər. Restoranda bir az gözlə, sonra de ki, tualetə getmək istəyirsən, oradan qayıdanda dərhal vaxtı itirmə. Təzədən stula oturma, gözlənilmədən atəş aç. Özü də yaxın məsafədən. Başlarını nişan al. Hərəsinə bir güllə bəs edər. Dərhal da aradan*** çıx. Silahı yerə tullamağı unutma...

Qaraxan ayağa qalxdı və Murada yaxınlaşıb onun əlini sıxdı və dedi:

- Çox yaxşı, balaca! Allah sənə yar olsun. Anamla vidalaşmağa vaxt yoxdur, özüm ona hər şeyi izah edərəm. Adaxlın sarıdan da narahat olma.

Muradın zərif və yaraşıqla sifətində bir əzələ də tərpənmədi. Sakit səslə soruşdu:

- Qaraxan, mən buralara bir də nə vaxt qayıda bilərəm?

Qaraxan qardaşından baxışlarını yayındıraraq könülsüz dilləndi.

- Ən azı iki-üç ildən sonra, - dedi.

Murad yenə təmkinini pozmadan qürurla əlavə etdi:

- Atama çatdırın ki, mən ona layiq oğul olmağa çalışacağam!

Murad Şahbulaq küçəsində, "Əzəmət" pivə barın yanında durmuşdu. Həmdin maşınını gözləyirdi. Saat səkkizə beş dəqiqə qalırdı. Hava küləkli, soyuq olduğundan və axşam tamaşaları başlandığından küçədə seyrəklik idi. Arabir bara bir-iki adam girib çıxırdı. Səkinin kənarında uzun, qara rəngli bahalı maşın dayandı. Murad diksinən kimi oldu. Tanımadığı cavan sürücü əyilib qabaq qapını açdı:

- Əyləş, murad.

Murad dinməzcə maşına oturdu. Arxa oturacaqda polkovnik Maqsudov və Həmid əyləşmişdi. Oturacağın söykənəcəyi arxasından Həmidin əli uzandı və murad diksinmədən bu əli sıxdı. Bu əl möhkəm, isti və quru idi – deməli, onun sahibi heç bir həyəcan-filan keçirmirdi. Həmid söhbətə körpü saldı:

- Yaxşı ki, sən gəldin, Murad. Ümidvaram ki, biz bu görüş nəticəsində sizlə bizim aramızda tüğyan edən xoşagəlməz hadisələrə son qoyacağıq. Doğrusu mən məsələnin bu cür şəkil alacağını gözləmirdim. Qurban kimi bir nəhəngin yaralanıb xəstəxanaya düşməsi isə dözülməzdir. Dünya malı üstündə biri digərinə güllə atdı. Heç yaxşı alınmadı. Polkovnik Maqsudov fürsəti əldən vermədən əlini uzadıb cəld və ustalıqla Muradın üst-başını axtardı. Murad tanımadığı gənc sürücünün üzündə təbəssümə bənzər bir ifadə sezdi. Böyük sürətlə hərəkət edən maşın Dənizin körpüsünü adladı və Şorgöl istiqamətində irəlilədi. İşıqları sayrışan şəhər arxada qaldı. Murad həyəcanla düşündü:

- "Ya bataqlıqda boğmaq istəyirlər, ya da ki, görüş yerini dəyişdiriblər..."

Lakin maşın düz yolla bir xeyli gedəndən sonra kəskincə geri döndü. Həmid gözlərini gecənin qaranlığına zilləmişdi. İndi o, əmin oldu ki, heç kəs onları təqib etmir.

***Maşın istiqaməti dəyişib Zeytunlu Məhəlləsinə tərəf yönəldi.***

***Həmid arxadan Həmidin çiyninə toxunduraraq:***

***- Əla sürürsən, Kamil. Mükafatın məndə, qayıdanda verəcəm.***

***On dəqiqədən sonra maşın kiçik qaçaqçılar məhəlləsinə daxil oldu. Küçədə heç kəs yox idi. Restoranda da təkəm-seyrək müştərilər gözə dəyirdi. Sürücü maşında qaldı. Onlar salondaca əyləşdilər. Həmid nədənsə ayrıca kabinetdən imtina etdi. Murad fikirləşdi ki, yəqin salonda Həmidin adamları var. Lakin bu heç bir rol oynamırdı. Onlar məsələyə qarışanacan iş işdən keçəcəkdi.***

Ofisiant qız əvvəlcə bir şüşə tünd çaxır, sonra isə dana ətindən basdırma və salatlar gətirdi. Şüşənin tıxacını açaraq badələri doldurdu. Məlum oldu ki, polkovnik ümumiyyətlə içən deyil.

- Mən yəqin kollektivdə yeganə adamam ki, əyyaş deyiləm, - deyə polkovnik izah etdi.

Həmid üzünü polkovnikə tutub üzrxahlıqla dedi:

- Bağışlayın rəis, mən Muradla talış dilində danışacağam. Ancaq elə düşünməyin ki, sizə etibar etmirəm, sadəcə olaraq azərbaycanca öz fikrimi yaxın ifadə edə bilmirəm. Polkovnik Maqsudov istehzalı tərzdə başını bulayıb gülümsədi:

- Siz işinizlə məşğul olun, - dedi. Mən cani dildən yeməklə məşğul olacam.

Həmid Murada tərəf çöndü və talış dilində, yeyin-yeyin danışmağa başladı:

- Sən başa düşməlisən ki, bütün bu həngamələr şəxsi ədavətlə, işgüzar münasibətlə və ən əsası bizneslə bağlıdır. Mənim əvvəllər baron, amerikalılar demiş don Qurbana böyük hörmətim olub. Mən indi də ona böyük həvəslə qulluq edərdim. Fəqət, təəssüf ki, köhnəpərəst adamdır, yeniliyi heç cür qəbul eləmək istəmir. Mənim məşğul olduğum narkobiznesin böyük gələcəyi var. Sənin atansa mənim əl-qolumu bağlamaq istəyir. Məlum hadisə də elə bu səbəbdən baş verdi. Onu da nəzərdən qaçırma ki, təkcə bizim bölgədə olan əsas beş ailə-klanı ürəkdə məni dəstəkləyir. Doğrudur, hələlik bizim məsələyə qarışmırlar, lakin dəqiq bilirəm ki, onlarda xarici ölkələrdə olan şərikləri hesabına narkotik biznesinə maraq göstərirlər. Əylisli ailəsi isə mənə partnyor olub. Əgər bu münaqişə davam etsə, Vüqarlı klanı tək qalacaq. Atanız salamat olsaydı, bəlkə də duruş gətirə bilərdiniz. Lakin o xəstə yatır. Sənin böyük qardaşın isə, üzr istəyirəm atanla müqayisədə xırda adamdır. Ailənizin müşaviri Məcid də yüksək ağlına baxmayaraq, nəyisə dəyişdirməkdə acizdir. Buna görə də sizə sülh təklif edirəm.

Vüqarlı ailəsindən xahiş edirəm ki, mənim işimə mane olman. Yəqin sənin kifayət qədər səlahiyyətin var ki, buna razılıq verib mənimlə müqavilə bağlayasan.

Murad bu dəfə Azərbaycanca dedi:

- Bu dəqiqə məni maraqlandıran atamın təhlükəsizliyidir. Bizə zəmanət verilməlidir ki, bir daha onun həyatına qəsd edilməyəcək.

Həmid sözkəsənlik edirmiş kimi sol əlini yuxarı qaldırdı.

- Siz hansı zəmanətdən danışırsınız? Mən ki, heç kəsi ovlamıram, mənim özümü ovlayırlar. Mənsə öz vacib şansımı buraxdım. Zəmanəti mən yox, siz verməlisiniz. Daha Muradda heç bir şübhə yeri qalmadı ki, Həmid onları aldatmaq, bir neçə gün vaxt qazanmaq istəyir. Fürsət düşən kimi klan Qurbanı aradan götürməyə yenidən cəhd göstərəcək. Bu fikir Muradın qətiyyətini bir qədər də artırdı.

O, qəribə tərzdə üz-gözünü turşutdu. Həmid kəskin, bir qədər acıqlı səslə soruşdu:

***- Nə olub, yerində qurcalanırsan?***

***Murad sanki utanaraq əvvəl çiynini çəkdi, sonra mızıldandı:***

***- Bu zəhrimar çaxırg çox içdim. Bir dəqiqəliyə tualetə dəymək olar?***

***Həmidin zəhmli, qara üzüm giləsinə oxşayan gözləri Muradın üzünə zilləndi.***

***Murad xəcalətli görkəm aldı. Polkovnik donquldandı:***

***- Qoy getsin, mən ki, onun üst-başını axtardım. Silahı yoxdu.***

***Həmid çox həvəssiz:***

***- Yaxşı, get, - dedi, ancaq çox yubanma.***

***O, heyvani duyğuya malik idi, deyəsən şübhələnmişdi.***

***Murad qalxıb tualetə getdi. Ətrafa göz gəzdirib əlini su baçokunun dalına soxdu, plastırla qabın arxa divarına bərkidilmiş kiçik tapançanı tapdı. Götürüb kəmərinə taxdı və pencəyini bütün düymələrini düymələdi. Əllərini yudu, üzünə, saçlarına su çəkdi. Qapını açıb çıxdı. Həmid tualetin qapısıyla üzbəüz oturmuşdu, qara gözləri təşvişlə parıldayırdı. Murad onun üzünə gülümsündü və köks dolusu nəfəs alaraq:***

- İndi söhbət eləmək olar, - dedi.

Polkovnik Maqsudov bu vaxt ərzində iri boşqabda ortaya qoyulmuş dana ətini qabağına çəkib iştahla həzm-rabedən keçirməkdə idi. Uzaq küncdə oturmuş və Muradın hər bir hərəkətini diqqətlə izləyən adam da sakitləşən kimi oldu. Murad əvvəlki yerində oturdu. Onun yaxşı yadındadır ki, Rasim ona bunu qadağan etmişdi, tualetdən çıxan kimi dərhal atəş açmağı tövsiyə etmişdi. Lakin daxili instinkt, bəlkə də inadkarlıq onu başqa formada hərəkət etməyə sövq elədi. Hər halda ona elə gəldi ki, kəskin hərəkət edən kimi onu gülləyə tutacaqlar. Həmid danışa-danışa qabağa əyildi. Murad guya onu gərgin dinləyirmiş kimi stolun altında pencəyinin alt düymələrini tələsmədən açdı. Bu zaman Həmidin dediklərindən yarım kəlmə də anlamırdı. Qan beyninə vurmuşdu, gicgahı guppuldayır, ürəyi şiddətlə çırpınırdı. Sağ əli stolun altında tapançaya tərəf sürüşdü və ehmalca onu çıxartdı. Bu zaman ofisiant yeni sifariş qəbul etmək üçün stola yaxınlaşdı. Həmid ani olaraq başını ona tərəf döndərdi. Murad sol əli ilə masanı itələdi, sağ əli ilə tapançanı Həmidin başı səviyyəsinə qaldırdı. Həmid qeyri-adi reaksiyaya malik idi. Murad tərpənən kimi kənara sıçramaq istədi. Lakin Murad ondan cavan, refleksləri daha iti idi və düz tətiyi basmağa macal tapdı. Güllə Həmidin düz gözü ilə qulağı arasından dəydi, fışqıran qan və qanla birlikdə beyin toxumaları qorxudan donub qalmış ofisiantın jiletini bulaşdırdı. Murad dərhal hiss etdi ki, bu bircə güllə gözlərindən həyat işığını itirən, titrək şam şöləsi kimi sönməkdə olduğu Həmid üçün kifayətdir. Həmidin beynini dağıdan güllədən bir neçə saniyə sonra tapança bu dəfə polkovnik Ziya Maqsudova tuşlandı. Polkovnik qəribə tərzdə Həmidin partlamış beyninə baxırdı, elə baxırdı ki, sanki bu hadisənin ona heç bir dəxli yox idi və onun özünü təhlükə zad gözləmir. Onun düşdüyü vəziyyət o qədər gülünc idi ki, Murad tətiyi çəkəndə özünü gülümsəməkdən saxlaya bilmədi.

Növbəti atəş uğursuz və iyrənc oldu. Güllə Maqsudovun yoğun boynuna dəydi və indicə yediyi dana əti sanki boğazında qalıbmış kimi boğulmağa, ağzını fışıltıyla açıb yummağa başladı. Murad soyuqqanlıq və səliqəylə nişan alıb, ikinci güllənі polis zabitinin düz çalsaç təpəsinə çaxdı. Və dərhal da küncdəki masanın arxasında oturmuş adama tərəf cumdu. Ancaq həmin adam iflic vurmuş kimi donub qalmışdı. Yalnız Muradın ona tərəf şığıdığını gördükdə cəld boş əllərini stolun üstünə qoydu və həngamənin guya ona dəxli yoxmuş kimi kənara baxmağa başladı. Murad ehmalca silahı əlindən buraxdı və tapança onun paltarının bükükləriylə sürüşüb düz masanın altına düşdü. Salondakılardan heç kəs onun tapançanı əlindən necə buraxdığını sezmədi.

*Növbəti atəş uğursuz və iyrənc oldu. Güllə Maqsudovun yoğun boynuna dəydi və indicə yediyi dana əti sanki boğazında qalıbmış kimi boğulmağa, ağzını fışıltıyla açıb yummağa başladı. Murad soyuqqanlıq və səliqəylə nişan alıb, ikinci güllənі polis zabitinin düz çalsaç təpəsinə çaxdı. Və dərhal da küncdəki masanın arxasında oturmuş adama tərəf cumdu. Ancaq həmin adam iflic vurmuş kimi donub qalmışdı. Yalnız Muradın ona tərəf şığıdığını gördükdə cəld boş əllərini stolun üstünə qoydu və həngamənin guya ona dəxli yoxmuş kimi kənara baxmağa başladı. Murad ehmalca silahı əlindən buraxdı və tapança onun paltarının bükükləriylə sürüşüb düz masanın altına düşdü. Salondakılardan heç kəs onun tapançanı əlindən necə buraxdığını sezmədi*

***Sonra bir az cəld, inamlı addımlarla restoranın çıxış qapısına tərəf yönəldi. Ağır, naxışlı qapını açaraq küçəyə çıxdı. Həmidin maşını əvvəlki kimi səkinin qırağında durmuşdu. Ancaq sürücü gözə dəymirdi. Deyəsən harasa getmişdi...***

***Murad sola, tinə buruldu. Və dərhal da qapısı taybatay açıq «Sedan»ın ona yaxınlaşdığını gördü, cəld maşının içinə təpildi və «Sedan» nərildəyərək böyük sürətlə yerindən götürüldü. Sükanın arxasında Cəbi əyləşmişdi. Diqqətlə baxan olsaydı, onun sifətinin kobud cizgilərinin sanki mərmərdən yonulubmuş kimi necə bərq vurduğunu, bərkiyib daşlaşdığını aydınca görərdi.***

- Həmidi gəbərtdin?

- Hər ikisini, - deyə Murad sakitcə cavab verdi.

- Sən buna əminsən?

- Hər ikisinin partlamış beynini öz gözlərimlə gördüm.

Murad maşındaca paltarını dəyişdirdi. Artıq iyirmi dəqiqədən sonra o, Türkmənistana yollanan gəminin göyərtəsində idi. O, öz kayutasının illüminatorundan Dənizlinin getdikcə uşaqlaşan işıqlarını izaholunmaz bir duyğuyla seyr edirdi.

...Həmid və polkovnik Ziya Maqsudovun qətlinin ertəsi günü Dənizli polisinin hər bir şöbəsi və bölməsi öz sahə müvəkkillərinin vasitəsilə elan etdi ki, polkovnik Maqsudovun qatili tapılmayana qədər qumarxanalar, gecə barları, restoran və kafelər qapalı qalacaqdır. Şəhərdə genişmiqyaslı tuthatut başladı. Azacıq müqavimət göstərənlər yerindəcə şil-küt edilirdi.

İki gün sonra axşam tərəfi Dənizlinin beş ailə klanının göndərdiyi elçi Vüqarlı ailəsinə belə bir sualla müraciət etdi: «Qatili ələ verməyə razısınız, ya yox?»

***Elçiyə cavab verdilər ki, bu məsələnin heç kəsə dəxli yoxdur. Gecə Neapol meydançasında, Qaraxanın oturduğu iqamətgahın qarşısında böyük sürətlə ötüb keçən maşından atılan bomba partladı. Həmin gecə Vüqarlı klanına mənsub olan iki «sıravi» döyüşçü maşında öldürüldü.***

***Bütün bunlar Qaraxan və digər mafiya üzvlərini ciddi narahat edirdi. Yeni qətllər hazırlamaq planları üstündə baş sındırdılar. Məqsədləri isə Həmidin yerdə qalan fiqurlarını məhv etməkdən ibarət idi. Bu arada telefon zəng çaldı. Xəttin o başında baş leytenant Murtuz idi. O, Qaraxana deyirdi:***

***- Bu gün keçirilən müşavirədə qərara alındı ki, hökumətin sizinlə işi yoxdu. Yapon variantı seçildi. Yəni siz klanlar bir-birinizlə döyüşəndə polis müşahidəçi rolunu oynayacaq, yəni işə müdaxilə etməyəcək. Siz öz aranızda mübahisəli məsələləri özünüz həll etməlisiniz. Aydıngil...***

***Qaraxan dəstəyi yerinə qoyub dərindən nəfəs aldı və ətrafında toplaşan həmkarlarına astadan dedi:***

***- Gözünüz aydın, indi Həmidin o biri qardaşlarının aradan götürülməsi yollarını axtarın...***

**(ardı var)**